AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 2/7

Bakı şəhəri 15 fevral 2017-ci il

AMEA-nın Yalançı elmə qarşı mübarizə üzrə
Komissiyasının Əsasnaməsinin təsdiq
edilməsi haqqında

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin 07 dekabr 2016-cı il tarixli 15/3 nömrəli qərarına əsasən Yalançı elmə qarşı mübarizə üzrə Komissiya yaradılmışdır. Komissiyanın fəaliyyətini təmin etmək məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA-nın Yalançı elmə qarşı mübarizə üzrə Komissiyasının Əsasnaməsi təsdiq edilsin (əlavə olunur).
2. AMEA-nın Yalançı elmə qarşı mübarizə üzrə Komissiyasının sədri, akademik Dilqəm Tağıyevə tapşırılsın ki, təsdiq olunmuş Əsasnaməyə müvafiq olaraq Komissiyanın fəaliyyətini təmin etsin.
3. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT